# METODİKA

UOT 82-1

## ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ PRİNSİPLƏRİ

**X.F.MANAFLI, Ə.Y.AĞAKİŞİYEV**
***Bakı Dövlət Universiteti***
***xanimmanafli@mail.ru***

*Şagirdlərin nitqinə onu əhatə edən hər cür mühit-ailə, küçə, məktəb, məktəbdənkənar müəssisələr və s. təsir göstərir. Bunların arasında məktəbin xüsusi rolu var. Məktəbdə şagirdin nitqinin inkişafı ayrı-ayrı fənlərin, xüsusilə, Azərbaycan dili və ədəbiyyat fənlərinin tədrisi yolu ilə təmin olunur. Məqalədə ədəbiyyat dərslərində həm yazılı, həm də şifahi nitqin inkişafı yolları araşdırılmış, bu prosesdə müəllimin rolu yüksək qiymətləndirilmişdir.*

**Açar sözlər:** yazılı nitq, şifahi nitq, oxu, mündəricat, dərs, mətn

İnsan həyatı boyu müxtəlif yaradıcılıq faktları ortaya qoymuşdur. Hər bir insanın davranışının formulları mədəniyyət əsasında müəyyənləşir. Mədəniyyət bilavasitə insanlara məxsusdur və insan həyatının bütün sahələrinə aid davranışlar bu anlayış adı altında ümumiləşdirilir. Odur ki, mədəniyyətin müxtəlif tipləri biri-birindən fərqləndirilir: davranış mədəniyyəti, toy mədəniyyəti, yas mədəniyyəti, hərb mədəniyyəti və s. Nitq mədəniyyəti də bunlardan ən mühümü, ən mürəkkəbi və ən vacibidir. İctimai münasibətlər zəminində nitq mədəniyyəti özünün ən mükəmməl səviyyəsinə çatmış olur. Yazılı və şifahi nitq anlayışlarını şərh etməzdən öncə nitq və nitq mədəniyyəti anlayışlarına diqqət yetirmək lazımdır.

Bəlli olduğu kimi, dil danışıq prosesində nitqə çevrilir ki, bunun da əsasını üç mühüm anlayış təşkil edir:

- ictimai mühit;
- psixoloji akt;
- fizioloji imkan.

İctimai mühit nitq fəaliyyətinin yerinə yetirildiyi “sahə”dir. Insan özünü ictimai mühitdə realizə etmək, ünsiyyətə girmək, müxtəlif tipli informasiyaları ötürmək və qəbul etmək, eyni zamanda özünün daxili emosionallığını ifadə etmək üçün nitq prosesinə qoşulur. Təbii ki, nitq prosesi də tarixi-ictimai əsaslı olduğu üçün zaman-zaman dəyişmə, inkişaf etmə, cilalanma qabiliyyətlərinə malikdir. Dil etnokulturoloji mahiyyətə malik olmaqla tarixilik kateqoriyasını

da özündə ifadə edir. Yəni XIII əsrdə yazıya alınmış abidənin dili də Azərbaycan dilidir, lakin nitq müasir, sinxron planda ortaya çıxdığı üçün canlıdır, çevikdir və zamanın aktiv leksikonu əsasında formalaşır. Bununla əlaqədardır ki, İ.Nəsimi, Ş.İ.Xətai və M.Füzulinin nitqi həm üslub, həm leksik baza, həm də ifadə imkanları baxımından bugünki nitqdən xeyli fərqlənir. Orta məktəblərdə ədəbiyyat dərslərinin tədrisi zamanı nitqin inkişaf etdirilməsində bu məsələnin nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir. Çünki orta məktəb şagirdi bu günün nitq daşıyıcısı olduğu üçün İ.Nəsimi, Ş.İ.Xətai və M.Füzulinin nitqini tam mənası ilə anlamaya bilir. Ədəbiyyat dərsini tədris edən müəllim bilməlidir ki, bu bir tərəfdən dövrün dil imkanlarından irəli gəlirsə, digər bir tərəfdən dilin müvafiq sənətkarın nitqində təzahür spesifikasından doğur. Yəni poetik yaradıcılığın özü dil faktının müəyyən üslubi imkanlar çərçivəsində təzahürüdür. Artıq bu nitq yazıçının poetik dühasını, onun dünyagörüşünü, istedadını təzahür etdirir.

Nitq fəaliyyətində psixoloji akt dedikdə, burada nitq və təfəkkür arasında gedən proseslər nəzərdə tutulur. Yəni təfəkkürün gerçəkliyə münasibətinin nitqdə ifadəsi normal bioloji imkanlar daxilində baş verir. Bu problemlə dilçiliyin yeni sahələrindən biri olan neyrolinqivistika məşğul olur.

Dilin nitqə çevrilməsi üçün digər mühüm şərtlərdən biri fizioloji imkanlarla bağlıdır. Ümumiyyətlə, nitqin funksionallaşması üçün eşitmə, danışıq və s. orqanların da normal qaydada olması vacibdir.

Yuxarıda qeyd etdiyimiz üç şərt daxilində nitqin funksionallaşması mümkündür. Bunlardan birinin pozulması bütövlükdə nitqin axsamasına gətirə bilər.

Nitqin təzahürü məsələsinə gəldikdə isə, qeyd etmək lazımdır ki, nitq iki formada ifadə olunur. Bunlardan birincisi şifahi nitqdir ki, onun da özünəməxsus xüsusiyyətləri vardır. Digəri isə yazılı nitqdir.

Nitq mədəniyyətinin mühüm tərkib hissəsi olan yazılı və şifahi nitqin inkişaf etdirilməsi vacib məsələlərdəndir. Orta məktəblərdə Ana dili və ədəbiyyat dərslərində buna böyük əhəmiyyət verilir. Yazılı və ya şifahi nitq mədəniyyəti prinsiplərindən birinin pozulması savadsızlıq əlaməti kimi qiymətləndirilir. Bu mənada düzgün yazmaq və ya düzgün tələffüz etmək birbaşa olaraq şagirdin dünyagörüşünü, bilik və bacarıq səviyyəsini də ifadə etmiş olur.

Orta məktəblərdə həm yazılı, həm də şifahi nitqin inkişaf etdirilməsi işi ədəbyyat dərslərinin üzərinə düşür. "Ədəbiyyat tədrisində şifahi nitqin inkişafından bəhs edərkən, hər şeydən əvvəl, bu mövzunun məzmunu, hansı cəhətləri əhatə etdiyini dəqiq müəyyənləşdirmək lazımdır. Şagirdin şifahi nitqinə onu əhatə edən hər cür mühit – ailə, küçə, məktəbənkənar müəssisələr təsir göstərir və bunların hər birinin bu sahədə özünəməxsus mövqeyi və rolu vardır. Bununla belə təlim-tərbiyə ocaqları – körpələr evi, uşaq bağçası, məktəb şagirdlərin düzgün şifahi nitqinin inkişafını təmin edən əsas mərkəzlər olmalıdır" (7, 7).

İnsan mühitində şifahi nitqin funksionallaşması qaçılmazdır. Yuxarıdakı sitatdan gördüyümüz kimi, bu keyfiyyət müxtəlif mühitlərin təsiri ilə formalaşa bilər. Fərdin gündəlik həyatında rast gəlinən müxtəlif mühit və kollektivlər şifahi nitqin formalaşmasında birbaşa rol oynayır. Məktəbdənkənar

mühitlər küçə, ailə və s. bəzən şagirdin nitqində dialekt faktlarına, aktual leksikaya nisbətdə arxaikləşmiş sözlərin, vulqarizmlərin meydana gəlməsinə səbəb ola bilər. Bu halda bədii ədəbiyyatın rolu və imkanları qaçılmaz olur.

Dil və ədəbiyyat dərslərinin əsas vəzifələrindən biri də şagirdi ədəbi dil normaları çərçivəsində nitq prosesinə hazırlamaq, onda nitq vərdişlərinin formalaşmasına kömək etməkdir.

"Ədəbiyyat dərsində şifahi nitqin inkişaf etdirilməsi məsələlərini iki baxımdan nəzərdən keçirmək olar.

Birincisi, dil vahidlərinə görə:

a) səslər üzrə;
b) sözlər və frazeoloji ifadələr üzrə;
c) cümlələr, bədii parçalar.

İkincisi, iş formalarına görə:

a) mətnin oxunması üzrə;
b) əzbər söyləmə üzrə;
c) məzmunu söyləmək üzrə;
q) sual-cavab üzrə;
d) əsərlərin təhlili üzrə;
e) obyektin şifahi təsvirini vermək üzrə;
f) fikri, hissi şifahi izhar etmək üzrə.
g) çıxış, məruzə etmək üzrə və s." (7, 11).

Göründüyü kimi, dil vahidlərinə görə şifahi nitqin inkişaf etdirliməsi məsələsi müxtəlif iş vasitələri ilə həyata keçirilir. İstər mətnin ifadəli şəkildə oxunması, istər əzbər söylənilməsi, istərsə də müxtəlif obyektlərin, düşüncələrin şifahi ifadəsi səslər, sözlər və cümlələrin beyində düzüm tezliyini artırır, onun çevikliyini, situasiyada lokanikliyini və operativliyini təmin edir. Müasir təlim metodlarında da bu məsələlər yeni texnologiyaların, innovativ vasitələrin tətbiqi ilə daha canlı və effektiv şəkildə təmin olunur. Müasir fənn kurrikulumlarında fənlərarası iş, qruplarla iş, interaktiv metodlar nitqin çevik və işgüzar mühitə adaptasiya olunması məsələləri daha dərindən nəzərə alınaraq əks olunmuşdur. Bu mənada şifahi nitqin inkişaf etdirilməsi prinsiplərindən danışarkən, ilk növbədə bir məsələni vurğulamaq lazımdır ki, bu problem bir neçə səviyyədə özünü büruzə verir. Şəxsin öz fikir və düşüncələrini, hiss və duyğularını sözlə ifadə etməsi – müəyyən mövzu ətrafında diskussiya etmək, debatlarla fikri əsaslandırmaq, müstəqil mövzularda rabitəli məruzələr etmək və s.

Bütün bu deyilən prinsiplərin tətbiqindən sonra şagird işin nəticəsi olaraq aşağıdakıları bacarmalıdır:

- mətni rəvan və səlis şəkildə oxumaq, obrazların xarakterləri ilə mətni səsləndirmək;
- görünən və ya hər hansı ixtiyari obyektdən alınan təəssüratların rabitəli şəkildə təsvir olunması (bu, bir tərəfdən şagirdin nitq imkanlarına əsaslanırsa, digər tərəfdən şagirdin dünyagörüşünün genişliyinə dəlalət edir);
- hiss, duyğu və emosiyaların ifadəsi üçün uyğun ifadələrin seçilməsi, daxili aləmin söz vasitəsilə əks olunması;

- şifahi nitq üslublarının müvafiq növünə uyğun dil vahidlərinin seçilərək istifadə olunması qabiliyyətinə yiyələnmək;

- müxtəlif tədbirlərdə, debat və diskussiyalarda qoyulan problem ətrafında müstəqil fikir yürütmək bacarığının əldə olunması.

Ümumiyyətlə, ədəbiyyat dərslərində şifahi nitqin inkişaf etdirilməsi prinsipləri fənni tədris edən müəllimin müstəqil yaradıcılıq imkanlarına uyğun olaraq artırıla bilər. Müəllim öz işinə uyğun olaraq müxtəlif prinsiplərdən yaradıcı şəkildə bəhrələnə bilər. Eyni zamanda burada tədris olunan materialın da düzgün seçimi və ona müvafiq işin qurulması da əhəmiyyətli rol oynaya bilər.

Ədəbiyyat və dil dərslərinin mühüm funksiyalarından biri də şagirdlərdə yazılı nitq qabiliyyətinin fomalaşdırılmasıdır. Nəzərə almaq lazımdır ki, həm yazılı, həm də şifahi nitq ədəbi dilin normaları ilə müəyyən olunur. Bu mənada yazılı nitq vərdişləri də məhz ədəbi dilin fonetik, leksik və qrammatik normaları əsasında nizamlanır. Xüsusilə, fonetik normanın orfoqrafik prinsipi yazılı nitqin əsas mahiyyətini təşkil edir.

Ədəbi yazılar şagirddə təfəkkürü inkişaf etdirir, emosional cəhətdən zənginləşdirir, ona müstəqil olmaq psixologiyası aşılayır. “Ədəbi yazıların əsas məqsədi ədəbiyyat dərslərində şagirdlərin aldıqları nəzəri məlumatı yoxlamaq, onların Azərbaycan dilində bilik və vərdişlərini möhkəmləndirib inkişaf etdirməkdən ibarətdir” (4, 392). Savadlı, rəvan yazmaq və danışmaq şəxsin mənəvi-daxili imkanlarının dünyagörüşünün zənginliyinin mühüm göstərcilərindəndir. Yazılı nitq üçün şifahi nitq əsas baza rolunu oynayır. Özünüifadənin zəngin çalarlarını ifadə edən şifahi nitqin yazıya keçiriliməsi özü-özlüyündə dil və ədəbiyyat dərslərinin əsas vəzifələrindən biridir.

Şifahi nitqin yazıya keçirilməsi məsələsi, ümumiyyətlə, yazı mədəniyyəti həm texnoloji qabiliyyətləri, həm də təfəkkür imkanlarını ehtiva edir. Araşdırmalar göstərir ki, şagirdlər normal şifahi nitqə malik olduqları halda, onu yazıda ifadə etməkdə çətinlik çəkir və özlərini müstəqil hiss etmirlər. Yəni şagird özünü yazı vasitəsilə ifadə etmək vərdişinə malik olmadığı üçün şifahi nitqi yazılı nitqə uyğunlaşdırmaqda ciddi problemlər ortaya çıxır. Odur ki, müəllim şifahi və yazılı nitqin qarşılıqlı əlaqədə, biri-birilərini tamamlayacaq formada inkişaf etdirilməsi üçün mütəmadi iş aparmalıdır. Ənənəvi şəkildə yazılı nitqin inkişaf etdirilməsi üçün bir sıra yazı növlərindən istifadə olunur ki, bunlar da əsasən aşağıdakılardan ibarətdir:

- əzbər yazılar;
- suallara cavab yazmaq formasında yerinə yetirilən yazı forması;
- nəsrə çevirmə yazıları;
- ifadə yazılar və s.

İstər imla, istərsə də inşa formasında olan yazılar orta məktəblərdə yazı mədəniyyətinin inkişaf etdirlməsi üçün istifadə olunan ən mühüm vasitələrdəndir.

Kompüter texnologiyasının inkişaf etdiyi bir zamanda yazı, birbaşa olaraq şifahi ünsiyyətin alternativi kimi də çıxış etməkdədir. Sosial şəbəkələrdəki sərbəstlik, virtual dünyanın verdiyi imkanlar bəzən yazı mədəniyyətinə mənfi təsir edə bilir. Belə ki, burada orfoqrafiya prinsipinin pozulduğu açıq

şəkildə özünü göstərir. Araşdırmalarımıza əsasən deyə bilərik ki, bu tendensiya orta məktəb şagirdlərinin yazılı nitqinə də mənfi təsir göstərir. Artıq müəllim yazı qaydalarını pozan dialekt faktları ilə yanaşı, virtual dünyadan gələn problemləri də aradan qaldırmaq məcburiyyətindədir.

Ümumiyyətlə, şagirdlərdə şifahi və yazılı nitqin inkişaf etdirilməsi təkcə dil və ədəbiyyat dərslərində deyil, digər fənlərlə qarşılıqlı əlaqədə, mühitə nəzərən həyata keçirilməlidir. Fənnlərarası əlaqə vasitəsilə müəyyən terminoloji dilin aşılanması özü də yazılı nitqin inkişafına yardım edə bilər.

## ƏDƏBİYYAT


1. Abdullayev A. Üslubiyyat məşğələlərinin metodikası. Bakı: Azərnəşr, 1961, 143 s.
2. Axundov A. Dil və üslub məsələləri. Bakı: Gənclik, 1970, 103 s.
3. Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər). Bakı: Elm, 1970, 356 s.
4. Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. Dərslik. Bakı: BDU, 1992, 455 s.
5. Hacıyev T., Cəfərov N., Xudiyev N. Azərbaycan dili: Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı: Aspoliqraf, 2009, 144 s.
6. Qarabağlı Ə., Zamanov A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1968, 350 s.
7. Muradov B., Hacıyev A. Ədəbiyyat dərslərində şifahi və yazılı nitqin inkişaf etdirilməsi. Bakı: APİ, 1990, 80 s.


## ПРИНЦИПЫ РАЗВИТИЯ РЕЧИ НА УРОКАХ ЛИТЕРАТУРЫ


**Х.Ф.МАНАФЛЫ, А.Е.АГАКИШЕВ**



## РЕЗЮМЕ

На речь учеников оказывает влияние любая среда, будь то семья, улица, школа, внешкольные заведения и т.д. Особая роль среди них принадлежит школе. В школе развитию речи ученика способствует преподавание отдельных предметов, в особенности азербайджанского языка и литературы. В статье исследованы пути развития (усовершенствования) как письменной, так и устной речи, показана роль педагогов (учителей) в этом процессе.



**Ключевые слова**: писменная речь, устная речь, чтение, содержание, урок, текст


## THE PRINCIPLES OF SPEECH DEVELOPMENTAT LITERATURE LESSONS


**Kh.F.MANAFLI, A.Y.AGAKISHIYEV**



## SUMMARY

Every kind of environment be it a family, street or school influences pupils' speech. School is relatively of a more special role. At schools, development of pupils' speech is provided by teaching different subjects especially Literature and the Azerbaijani Language. The article stidies both oral and written ways of development of speech and the teacher's role in this process is appreciated.



**Key words**: written speech, oral speech, reading, theme, lesson, text.